**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **AVQUST 2013**
**İNZİBATİ HÜQUQ**

## İNZİBATİ İŞLƏRƏ BAXILMA MÜDDƏTİ

İnzibati İcraat haqqında Qanunun qəbul edilməsi və 1 sentyabr 2010-cu ildən etibarən qüvvəyə minməsi Azərbaycan Respublikasında inzibati qanunvericilik sahəsində aparılan islahatlar nöqteyi-nəzərindən əhəmiyyətli addımdır.

Bu Qanun, vətəndaşlarla dövlət arasındakı münasibətləri tənzimləyərək, Azərbaycan Respublikasının Konstitusiyasinda nəzərdə tutulmuş qanunun aliliyi prinsipini möhkəmləndirir.

Hüquqi dövlətdə şəxs həm də inzibati orqanların fəaliyyətinə qarşı tam və yetərli hüquqi müdafiə imkanları ilə təmin olunmalıdır. Bu baxımdan 30 iyun 2009-cu il tarixində İnzibati Prosessual Məcəllənin qəbul edilməsi və 1 yanvar 2011-ci il tarixindən qüvvəyə minməsi Azərbaycan Respublikasının inzibati hüquq sahəsində həyata keçirdiyi islahatlar sırasında daha bir mühüm addımdır.

Məcəllə üç pilləli inzibati məhkəmə sisteminin yaradılmasını nəzərdə tutur, yəni inzibati işlər üzrə birinci instansiya kollegiyaları birinci instansiya məhkəmələrində, ikinci instansiya kollegiyaları apelyasiya məhkəmələrində, sonuncu instansiya kollegiyaları isə Ali Məhkəmədə yaradılmışdır. Azərbaycan Respublikası ayrica inzibati məhkəmə sisteminin yaradılmasını deyil, ümumi məhkəmə sisteminin tərkibində inzibati məhkəmələrin təşkil edilməsini qərara almışdır.

Bu Qanun və Məcəllənin qüvvəyə minməsindən sonra məhkəmələrdə inzibati işlər üzrə mübahisələrə baxılarkən hüquqşünasları və eyni zamanda vətəndaşları maraqlandıran vacib məsələlərdən biri də işə baxılma müddətidir.

Bu məsələdə ən çox sual olunan məqam Mülki Prosessual Məcəllədə nəzərdə tutulan və işə üç ay ərzində baxılıb qərar çıxarılmasını təsbit edən müddəanın inzibati məhkəmələrə də aid olub-olmamasıdır.

İlk əvvəl bu məsələ inzibati məhkəmələr arasında olduqca mübahisəli idi. Lakin hal-hazırda bununla əlaqədar aşağıdakı mövqenin bərqərar olduğunu söyləmək mümkündür.

İnzibati Prosessual Məcəllədə Mülki Prosessual Məcəlləyə ümumi göndəriş nəzərdə tutulmuşdur, eyni zamanda İnzibati Prosessual Məcəllənin 22.2-ci maddəsində müddətlərlə bağlı xüsusi olaraq bir daha Mülki Prosessual Məcəlləyə göndəriş edilir. Lakin, həmin maddədə nəzərdə tutulan göndərişlər məhkəmənin qərarı hansı müddət ərzində çıxarmasına deyil, yalnız müddət axımının təfərrüatlarına (başlanma, başa çatma, bayram günləri və s.) şamil olunur.

İnzibati Prosessual Məcəllədə normal icraatlar üçün qərarın hansı müddət daxilində çıxarılması ilə bağlı müddətlər müəyyən edilməmişdir. Bu isə Məcəllə ilə nəzərdə tutulan bir sıra normaların tələblərindən irəli gəlir.

Belə ki, Məcəlləyə əsasən hər hansı bir inzibati akt inzibati orqanın hərəkətsizliyi səbəbindən qəbul edilməmişdirsə, məhkəmə ona inzibati aktın qəbul olunması üçün müəyyən müddət təyin edir. İnzibati orqan isə inzibati aktı qəbul etdikdən sonra məhkəməyə məlumat verməlidir. Təyin olunan müddət hakim tərəfindən və işin mürəkkəbliyindən, hallarından və s. fərdi xüsusiyyətlərdən asılı olaraq təyin edilir. Təyin olunmuş müddət bitənədək inzibati orqan tərəfindən inzibati akt qəbul edilmədikdə, məhkəmə həmin müddətin bitdiyi vaxtdan üç ay ərzində iş üzrə qərar qəbul edir və məhkəmənin həmin qərarı inzibati aktı əvəz edir.

Bundan başqa məhkəmənin tələbinə baxmayaraq, iddiaçı 30 gündən çox müddət ərzində ardıcıl olaraq iş üzrə məhkəmə icraatında iştirak etməkdən yayınarsa, iddia geri götürülmüş sayılır və məhkəmə bu barədə qərardad qəbul edir. Yəni iddiaçının iddiadan imtina etməsi üçün Mülki Prosessual Məcəllədə nəzərdə tutulduğu kimi heç də iddiaçının fəal hərəkət etməsi vacib deyil. Müəyyən hallarda onun hərəkətsizliyi məhkəməyə onun iddiadan imtina etməsi haqqında qərardad qəbul etmək hüququnu verir.

Bundan başqa, yekun qərarın qəbulu üçün şərait hələ yetişməzsə və üç ay müddət ərzində qərar qəbul etmək məcburiyyəti nəzərdə tutularsa, onda inzibati məhkəmə icraatının mənası itmiş olardı. Bu zaman məhkəmə də hansı qərarı qəbul etməli olduğunu bilməyəcəkdir, çünki sübutetmə vəzifəsi ilə bağli qaydalar yalnız sübutların araşdırılmasının uğursuz nəticələndiyi hallarda qüvvədə olur.

Beləliklə, inzibati icraatın sübutların toplanması və inzibati orqanların hərəkətlərindən asılı olması xüsusiyyətləri, onun üç ay müddətində tamamlanması ehtimalını heçə endirir. Belə olan halda, İnzibati Prosessual Məcəllənin Mülki Prosessual Məcəllədəki müddətlərə göndəriş edilsə belə, praktiki cəhətdən, müddətlərə, xüsusilə inzibati icraatın üç ay ərzində tamamlanma müddətinə, əməl edilməsi qeyri-mümkün görünür. Hal-hazirda, təcrübədə bərqərar olunmuş qaydaya əsasən, inzibati icraat müddətində heç bir məhdudiyyət qoyulmur.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2013 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.